# 23 şagird 300 bal topladı

## Buraxılış imtahanında maksimal bal toplayanların sayı açıqlandı

**Martın 2-də keçirilmiş tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında maksimal nəticə toplayanların sayı açıqlanıb. İmtahan iştirakçıları arasında 23 nəfər ən yüksək nəticəni göstərib.**



Martın 2-də keçirilmiş buraxılış imtahanlarının (XI sinif üzrə) nəticələrinə əsasən, BŞTİ-nin tabeliyindəki 91 nömrəli tam orta ümumtəhsil məktəbinin şagirdi Şəhanə Abbasova, "Zəngi" liseyinin şagirdi Nuray Bayramova, 192 nömrəli tam orta ümumtəhsil məktəbinin şagirdi Ülkər Ələkbərova, 68 nömrəli tam orta ümumtəhsil məktəbinin şagirdi Rəhim Fərəczadə, 37 nömrəli tam orta ümumtəhsil məktəbinin şagirdi Mədinə İsmayılzadə, 54 nömrəli tam orta ümumtəhsil məktəbinin şagirdi Gülay Mürvətova, 272 nömrəli tam orta ümumtəhsil məktəbinin şagirdi Sona Nurməmmədli, 295 nömrəli tam orta ümumtəhsil məktəbinin şagirdi Tovuz Seyidova 300 bal toplayıblar.




2 mart tarixdə keçirilmiş XI sinif üzrə buraxılış imtahanlarının nəticələrinə əsasən, Şəki-Zaqatala Regional Təhsil İdarəsinin tabeliyindəki Şəki rayon Orta Zəyzid kənd 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi Orxan Abdulsəmədli, Qəbələ rayonu Uludaş kənd tam orta məktəbin XI sinif şagirdi Ömər Rəsulov və Şəki şəhər Kimya-biologiya təmayüllü respublika liseyinin XI sinif şagirdi Məhəmməd İsmayılov 300 bal toplayaraq maksimum nəticə göstərib.



Nəzrinin uğur hekayəsi

## Hədəfi böyük, nəticəsi yüksək

**Nəzrin Məmmədova hələ məktəblidir, amma nəticələri və məqsədləri ilə artıq fərqlənməyi bacarıb. Martın 2-də keçirilmiş buraxılış imtahanında maksimum bal toplayan Nəzrin təkcə məktəbin deyil, bütövlükdə rayonun fəxrinə çevrilib. "Azərbaycan müəllimi" qəzeti Şəmkir rayonu Kür qəsəbə H.Z.Tağıyev adına tam orta məktəbin şagirdi Nəzrinin təəssüratlarını dinləyib.**

### Bir sinif, iki bacı, bir məqsəd

Nəzrinin təhsil həyatı adi bir məktəbli hekayəsi deyil. O, böyük bacısı Nurayla eyni sinifdə oxuyur. Valideynləri hər iki bacının birlikdə böyüməsi və eyni təhsil mühitində inkişaf etməsi üçün Nəzrini məktəb yaşından əvvəl - 5 yaşında imtahanla məktəbə yazdırıblar.

Hazırda hər iki bacı Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisasına qəbul olmaq üçün hazırlaşır. Bacısı Nuray Məmmədova da buraxılış imtahanında 247 bal toplayaraq məktəbin üçüncüsü olub.

### Əzmkarlıq və intizam - nəticənin sirri

Uşaqlıqdan fərqliliyi ilə seçilən Nəzrin 9-cu sinif buraxılış imtahanlarında da yüksək nəticə göstərərək qırmızı attestata layiq görülüb: "Məncə, yüksək nəticə həm zəkanın, həm də əzmkarlığın göstəricisidir".

Nəzrin biliklərini testlərlə möhkəmləndirir, hər bir mövzunu mükəmməl şəkildə öyrənməyə çalışır. Ən çox diqqət ayırdığı fənn isə riyaziyyatdır. Onun fikrincə, bu fənn insana həm düşünməyi, həm də problemi həll etməyi öyrədir. Nəzrin imtahana hazırlıqda sınaq testləri-ni ən effektiv metod hesab edir: "Məni ən



çox sınaq imtahanlarında yüksək bal toplamağım motivasiya edib".

Gələcəyini Azərbaycan Tibb Universitetində görən Nəzrin özünü arzusuna çatmaq üçün tam hazır hesab edir: "Özümü gələcəkdə savadlı və faydalı bir həkim kimi görürəm".

### Sosial şəbəkələrdən uzaq, kitablara yaxın

Nəzrin və Nuray sosial şəbəkələrdən istifadə etmirlər, əvəzində vaxtlarını planlı şəkildə dərsə və öyrəndiklərinin təkrarına ayırırlar: "Vaxtımızı düzgün bölməliyik. Bilmədiyimiz və ya zəif bildiyimiz mövzular üzərində daha çox dayanmalıyıq", - deyə bacılar bildirir.

### Anadan güc, atadan ilham

Bu uğurun arxasında yalnız Nəzrin və Nurayın əzmkarlığı deyil, ailənin sarsılmaz dəstəyi də dayanır. Anası Ülviyyə Məmmədova deyir: "Qızlarımı ev işlərinə cəlb etmirəm. Düzü, heç vaxt onlara "niyə oxumursunuz?" da deməmişəm. Saatlarla oxuyurlar. Kitabdan başqa heç nəyə vaxt ayırmayıblar".

"Ataları uşaq vaxtlarından onların tibb sahəsinə yönəlməsini istəyirdi. Onlar da bu arzunu illərlə ürəklərində daşıyıblar".

### Şagirdlərə tövsiyəsi

Nəzrin uğurlu gənc olaraq təcrübəsini həmyaşıdları ilə bölüşməyi də unutmur: "Çox çalışsınlar, vaxtlarını düzgün bölsünlər və sosial şəbəkələrdən, yayındırıcı faktorlardan uzaq dursunlar. Məncə, maksimum bal toplayan hər bir şagird əzmkar olmalı, çox çalışmalı və hər şeyi mükəmməl öyrənməlidir".

**Firuzə CÜMŞÜD,**
*Gəncə-Daşkəsən və Qazax-Tovuz üzrə regional təmsilçi*